# BİR ƏLİNDƏ ÜRƏYİ, BİR ƏLİNDƏ QƏLƏMİ

## (Gəray Göyyurdun şeirləri haqqında)



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Gəray Göyyurd Azərbaycanın gözəl bir məkanı-Gədəbəydə dünyaya göz açıb. O nəsildən Musa Ələkbərli, Bəhlul Ataxallı, Ramiz Kərəm kimi şairlər yetişib. Gəray da dördüncüdür. Mətbuatda çıxışları seyrək-seyrək görünən Gərayın şeirləri kitab halında oxuculara təqdim olunur və indiyə kimi altı kitabı işıq üzü görüb. "Taleyimin göy qurşağı" (2003), "Bir əlimdə ürəyimdi, bir əlimdə qələmimi" (2011) və "Belə sevəcəyəm səni, ay Vətən" (2015) şeir kitabları qarşımdadır və Gəray Göyyurdun istedadlı bir şair olduğunu və kitabdan kitaba poetik inkişafını izləmək yaxşı olardı.**

Hələ lap gənclik yaşlarında - 1988-ci ildə qələmə aldığı bir şeirində yazırdı:

**Ürəyim köksümdə qəfəsə düşüb,**
**Ürəyim elə bil həvəsə düşüb,**
**Ürəyim sinəmi hey cırmaqlayar,**
**Dərdimin ortağı, sinəmin odu,**
**Nə istəyirsən məndən?!**
**-Azadlıq!..**

Gəray elə bir dövrdə yaradıcılığa başlayıb ki, Azərbaycan gəncliyinin ruhu artıq oyanmışdı, müsəqillik havası bu gənclərin ürəyinə zərrə-zərrə səpələnirdi və onların ən böyük istəyi də elə azadlıq idi - məmləkəti, bu məmləkətdə yaşayan insanları, sərvətlərimizi və hər şeydən əvvəl sosializm buxovlarına zəncirlənm iş truhlarını azad görmək idi. "Ay bu xalqın oğulları, ay bu xalqın igidləri, ay bu xalqın ərənləri! Odlar yurdu deyə-deyə Od içində kül olmuşuq. Qanqan deyən selə dönüb, Qanımızda boğulmuşuq". Artıq elə bir dövr idi ki, illər boyu içəridə şölələnən azadlıq duyğuları meydan axtarırdı. Məlum Qarabağ hadisələri, torpaq itkilərimiz, 20 Yanvar faciəsi xalqın səbr kasasını doldurdu və bu qanlar, bu itkilər bahasına olsa da, müstəqillik bayrağını qaldıra bildik. Və yurdun şairləri də bu yolda - bu amal uğrunda döyüşdən (təbii ki, bədii sözlə) çəkinmədilər. Gəray Göyyurd da o zaman cavan bir şair kimi ürəyindəkiləri yurddaşları ilə bölüşdürdü. Doxsanıncı illərdə yazdığı şeirlərində bədbinlik, pessimizm çalarları güclü idi. Onu düşündürən bu idi ki:

**Söndürüb öz əlimizlə,**
**Oynayırıq külümüzlə,**
**Yalamadıq dilimizlə,**
**Bu qan yerdə qaldı axı...**

Bu etiraz ruhu Gərayın sonrakı illərdə yazdığı şeirlərindən də əksilmədi. "Haqsızlığa susanda" silsiləsindən olan şeirlərində işğal altında olan Şuşada ermənilərin otel tikməsi və s. belə hadisələr yetərincə ağrıdıcıdır və bir şair kimi onu ruhən sarsıdır. Biz istərdik ki, Gərayın şeirlərində o dərdlər, ələmlər öz yerini qələbəyə inam hissləri ilə əvəz olunsun. Ruhən işğal olunmağı qəbul etmək qələbəyə inamı itirmək deməkdir. Amma Gərayı da bir məqamda başa düşmək çətin deyil - o, Vətəni sevdiyi üçün onun torpağının işğalına dözəmmir. Amma Gərayın bir sıra vətənpərvərlik ruhunu ifadə edən şeirlərini də gərək unutmayaq, qismən azlıq təşkil edən bu şeirlərdə Gəray kədərdən sıyrılır.

Gəray Göyyurd xalq şeiri qanadlarında ədəbiyyata gəlib. Onun şeirlərində saz musiqisinin sədasını, ahəngini, təsirini hiss edirik.




**Arana üz tutan dağ çayı kimi,**
**Şirin xəyallara uyub gəlmişəm.**
**Təşnə səhraların, təşnə çöllərin,**
**Susuz olduğunu duyub gəlmişəm.**

**Qismətim duruluq olub mayadan,**
**Süzülüb çıxmışam daşdan, qayadan,**
**Dupduru duyğular batdı dəryada,**
**İlahi, nələrə qıyıb gəlmişəm.**

**Gəray, buralarda nəyin var, nəyin?**
**Artır günü-gündən dərdin, göynəyin!**
**Təkcə dağlar idi arxam, köməyim,**
**Onu da dağlarda qoyub gəlmişəm.**

Ümumiyyətlə, dağlara sevgi Gərayın şeirlərində ayrıca bir xətt təşkil edir. Poeziyamızda dağa sevgilər, insanla dağ arasında bənzərliklər... bu haqda çoxlu nümunələr var. Özü də bu nümunələrin əksəriyyəti qoşa formasında ifadə olunub. Gərayın "A dağlar" rədifli qoşması da ən gözçəl nümunələrdən biridir.

**Bulağıntək dönüm, qaynayım, daşım,**
**Gözünün yaşına dönüm, a dağlar.**
**Ya ağacın olum, meşəndə bitim,**
**Ya qara daşına dönüm, a dağlar.**
**Çayına qoşulum, düzünə axım,**
**Şimşəyinə dönüm, göyündə çaxım,**
**Qartalın olub da zirvəndən baxım,**
**Qırğına, quşuna dönüm, a dağlar.**

Dağlara aid bir şeiri də var ki, sanki saz musiqisi üstündə yaranıb, hansı havaya uyğundu, bunu oxucu özü biləcək:

**Göy zirvəndə duman olsun, qar olsun,**
**Ətəyində bəhər olsun, bar olsun,**
**Gül-çiçəkli yaylaqların var olsun,**
**Anam dağlar, sonam dağlar, a dağlar.**

Gəray Göyyurd "Bir əlimdə ürəyimdi, bir əlimdə qələmim" deyə dövrünün, zamanının ona diktə etdiyi həqiqətləri dilə gətirir. Darısqal otaqlarda sıxılmağından tutmuş Vətəni sevməyə qədər hər şeydən söz açır. Onun şeirlərində mütləq mənada pessimizm axtarmaq da doğru olmazdı. Öz arzularının reallaşmamasından doğan olaylar da var, amma çox vaxt bunları unudub üzünü Allaha tutur, "qəlbimin sultanı sən ol, ay Allah" deyir. Fikrimizcə, Gərayın nikbin notda, təbiətə və gözəllərə həsr etdiyi şeirlərdə şairlik məharəti ilə üz-üzə gəlirik. Gərayın bu tipli şeirlərində xalq dilinin incəlikləri, folklordan gələn xoş hava hiss edilir. Bir eşqin təəssüratından yaranan ovqatı belə incəliklə, xalq şeirindən gələn ruhla ifadə etmək necə də gözəl səslənərmiş:

**Çiçəkləndim eşqin ilə,**
**Gülləndim, gözəl, gülləndim.**
**Bir ilahi ilham ilə,**
**Dilləndim, gözəl, dilləndim.**

**Bülbül oldum sevgin ilə,**
**Dinlə, ürəyimi dinlə.**
**Torpaq kimi həsrətinlə,**
**Belləndim, gözəl, belləndim.**

**Aradım, sorağın aldım,**
**Şirin xəyallara daldım,**
**Hicranında batıb qaldım,**
**Külləndim, gözəl, külləndim.**

**Ocaq kimi alovlandım,**
**Sənə sarı hey boylandım,**
**Gəlmədin, yenə aylaedım,**
**İlləndim, gözəl, illəndim.**

**Gəray, ay keçdi, il oldu,**
**Qəlbin yenə tel-tel oldu,**
**Göz yaşım axdı göl oldu,**
**Gölləndim, gözəl, gölləndim,**
**Lilləndim, gözəl, dilləndim.**

Əsl gəraylıdır, təriflәmək olmasın, "köhnə havalarda" həmişə belə təzə notlar səsləndirmək olmur.

Gərayın şeirləri XXI əsrin təzadlı çağlarında yaşayan, qəlbi həmişə narahat hisslərlə dolu, nigarançılıq içində yaşayan, amma həm də gözəlliklərə vurğun bir şairin qələmindən çıxıb və biz onu bir az daha nikbin olmağa səsləyirik.